**Ayn Rand**

# ATLAS ÇİYİNLƏRİNİ QALDIRDI

**I cild**

Tərcüməçi:
Bəhlul Abbasov

qanun nəşriyyatı

Ayn Rand

# ATLAS SHRUGGED

Ayn Randın məşhur “Atlas çiyinlərini qaldırdı” romanı insanın fərdi azadlığı, yaradıcılığı və əxlaqi dəyərləri mövzularını dərinliklə araşdıran epik əsərdir. Həm fəlsəfi ideyaları, həm də mürəkkəb və maraqlı süjet xətti ilə oxucuları düşündürən və təsir edən klassikadır.

Əsərin əsas qəhrəmanı Daqni Taqqert ailəsinə məxsus “Taggart Transcontinental” dəmir yolu şirkətini ağır iqtisadi və siyasi şəraitdə idarə etmək üçün mübarizə aparır. Lakin cəmiyyətin dəyər sisteminin çökməsi yaradıcı və yenilikçi fərdləri təzyiqə məruz qoyur. Roman bu şəraitdə insanların əxlaqi və yaradıcı azadlıqlarını necə qoruduqlarını və uğur qazanmağa çalışdıqlarını göstərir.

Roman boyunca “Con Qolt kimdir?” ifadəsi sirli sual kimi təkrarlanır. Bu sual yalnız bir personajı deyil, həm də insan ağlının və fərdi təşəbbüsün əhəmiyyətini simvolizə edir. Ayn Rand bu əsərdə “obyektivizm” adlandırdığı fəlsəfi görüşlərini təqdim edir, fərdi azadlığı və dəyərləri qorumağın vacibliyini vurğulayır.

“Atlas çiyinlərini qaldırdı” təkcə roman deyil, həm də bəşəriyyətin gələcəyi, fərdi azadlığın qorunması və yaradıcı insanın gücü haqqında dərin fəlsəfi düşüncələr təqdim edən əsərdir.

# MÜNDƏRİCAT

## I HİSSƏ
## ZİDDİYYƏTSİZLİK


I FƏSİL. **MÖVZU** .......... **6**
II FƏSİL. **ZƏNCİR** .......... **31**
III FƏSİL. **ZİRVƏ VƏ DİB** .......... **48**
IV FƏSİL. **SABİT HƏRƏKƏTVERİCİLƏR** .......... **70**
V FƏSİL. **D'ANKONİYA SÜLALƏSİNİN ZİRVƏSİ** .......... **97**
VI FƏSİL. **QEYRİ-TİCARİ** .......... **138**
VII FƏSİL. **İSTİSMAR EDƏNLƏR VƏ İSTİSMAR OLUNANLAR** .......... **176**
VIII FƏSİL. **CON QOLT XƏTTİ** .......... **234**
IX FƏSİL. **SAKRAL VƏ DUYĞUSAL** .......... **272**
X FƏSİL. **VAYETTİN MƏŞƏLİ** .......... **313**


## II HİSSƏ
## YA ELƏ, YA DA BELƏ


I FƏSİL. **BU DÜNYANIN ADAMI** .......... **361**
II FƏSİL. **NÜFUZ ARİSTOKRATİYASI** .......... **401**
III FƏSİL. **AÇIQ ŞANTAJ** .......... **447**
IV FƏSİL. **SON SÖZ** .......... **485**
V FƏSİL. **HESABDA PUL YOXDUR** .......... **521**
VI FƏSİL. **MÖCÜZƏ METAL** .......... **558**
VII FƏSİL. **BEYİNLƏRƏ MORATORİUM** .......... **594**
VIII FƏSİL. **SEVGİMİZİN XƏTRİNƏ** .......... **634**
IX FƏSİL. **AĞRISIZ, QORXUSUZ VƏ GÜNAHSIZ ÜZ** .......... **659**
X FƏSİL. **DOLLAR NİŞANI** .......... **679**

# I HİSSƏ
# ZİDDİYYƏTSİZLİK

## I FƏSİL
## MÖVZU

– Bu Con Qolt kimdir?

Artıq hava qaralırdı. Eddi Villers sualı verən adamın üzünü görə bilmədi. Səfil dörd kəlməni soyuqqanlılıqla, tərəddüdsüz dedi. Küçənin axırında hələ də saralmaqda olan qürub günəşinin solğun şəfəqləri onun gözlərində əks olunurdu. Bu gözlərsə Eddi Villersə bir növ, rişxəndlə, eyni zamanda etinasızlıqla elə baxırdı ki, sanki sual şəxsən özünə deyil, onu incidən səbəbsiz narahatlığına ünvanlanmışdı.

– Niyə soruşursan ki? – Eddi Villers təşvişə düşdü.

Avara qapının çərçivəsinə söykənmişdi. Arxasındakı qırıq şüşə parçasına sapsarı səmanın əksi düşmüşdü.

– Bu səni niyə narahat edir ki? – soruşdu.

– Qətiyyən narahat eləmir, – Eddi Villers onun sözünü kəsdi.

O cəld əlini cibinə saldı. Səfil onu saxlayıb on sent istədi, sonra da danışmağa başladı, sanki yaranmış vəziyyətdən tələsik çıxmaq və sonrakı addımı atmaq üçün fürsət gözləyirdi. Son vaxtlar küçələrdə dilənçilərin əlindən tərpənmək o qədər çətinləşmişdi ki, onların izahatlarını dinləməyin yeri yox idi. İndi onun da bu avaranın maddi çətinliyinin səbəbini aydınlaşdırmağa, zərrəcə də olsun, nə marağı, nə də həvəsi vardı.

– Al, qəhvə içərsən, – deyə Eddi simasız adamın siluetinə müraciət elədi.

– Təşəkkür edirəm, ser, – laqeyd səs ona cavab verdi və bir anlıq üzü qaranlıqda göründü. Günəşdən qaralmış, qırış-qırış olmuş sifətində yorğunluq və biganəlikdən başqa heç nə oxunmurdu. Amma gözləri çox ağıllı olmasından xəbər verirdi. Eddi Villers yoluna davam elədi. Yolboyu bu fikir ona rahatlıq vermirdi: nəyə görə günün məhz bu vədəsində həmişə səbəbsiz yerə içində həyəcan baş qaldırırdı. Yox, əslində, bu, həyəcan da deyil, – düşünürdü, – ehtiyat edəcəyi bir şey yoxdu: sadəcə, bu, heç bir əsası olmayan son dərəcə bədbin və qeyri-müəyyən hiss idi. Bu hissə artıq alışmışdı, hərçənd, bunun nə olduğunu bilmirdi. Amma dilənçi elə danışdı ki, sanki Eddinin nə hiss elədiyini bilirdi, onun nələr yaşadığından xəbəri vardı, hələ üstəlik, səbəbini də bilirdi.

Eddi Villers özünü qaydaya salmaq ümidi ilə çiyinlərini düzəltdi. Buna son qoymaq lazımdır, yoxsa artıq onu qarabasma yaxalayır. O həmişəmi bundan əziyyət çəkib? Artıq otuz iki yaşındadır. Eddi xatırlamağa çalışdı. Yox, həmişə belə olmayıb axı. Amma bunun nə vaxt başladığını yadına sala bilmədi. Bu hiss onu qəfil və təsadüfən yaxalayırdı, ancaq son zamanlar tutmalar əvvəlkindən daha tez-tez baş verirdi. “Ala-qaranlığın təsirindəndir, – düşündü, – zəhləm gedir də ala-qaranlıqdan”.

Göydələnlərin qüllələri üçün əla fon olan buludlar qəhvəyi çalara bürünməklə qədim rəsm əsərini xatırladırdı. Qüllələrin altından his basmış, toz-torpaqdan rəngi qaralmış divarlar boyunca üzüaşağı on mərtəbə hündürlüyündə çat gözə dəyirdi. Dişli bir əşya damların üzərindən sanki səmaya cırmaq atmışdı: bir tərəfi qürub şəfəqi ilə bərq vururdu, digər tərəfində isə vaxtilə parlaq olmuş qızılı boya çoxdan solub tökülmüşdü. Binanın təpəsindəki uzun mil qırmızı lampalarla işıqlandırılmışdı: bu, artıq alovlanmayan, odu öləziyən ocağı xatırladırdı.

Yox, olduqca adi, sakit məkan təsəvvürü yaradan şəhərdə təşviş doğuracaq heç nə yox idi.

Yoluna davam elədi, yadına düşdü ki, artıq kontora getməlidir. Qayıtdıqdan sonra görəcəyi iş heç ürəyincə deyildi, amma sonraya saxlaya da bilməzdi. Odur ki, özünü tələsməyə məcbur elədi.

İki binanın qara siluetləri arasındakı dar keçiddə, sanki azacıq aralanmış qapının arasından Eddi Villers səmada işıldayan nəhəng təqvim səhifəsini gördü.

Bu təqvimi Nyu-Yorkun meri ötən il göydələnin damında yerləşdirmişdi ki, sakinlər qüllədəki saatdan vaxtı öyrəndikləri kimi hansı ayın neçəsi olduğunu da eynilə müəyyən edə bilsinlər. Şəhərin üzərinə qanad gərmiş bu ağ rəngli düzbucaqlı küçələri doldurmuş insanlara cari tarixi xatırladırdı. Şəhərin daldığı qırmızımtıl qürub çağında düzbucaqlı məlumat verirdi: bu gün sentyabrın ikisidir.

Eddi Villers üzünü yana çevirdi. Bu təqvim heç vaxt onun xoşuna gəlməyib, hər dəfə görəndə əsəbiləşirdi, amma səbəbini heç özü də deyə bilməzdi. Bu hiss də onu didib-parçalayan təlaşı ilə çulğaşırdı – onları sanki nəsə ümumi cəhət birləşdirirdi.

Qəfildən təqvimin öz varlığı ilə nəyə eyham vurduğuna dair hansısa bir fikrə nə vaxtsa rast gəldiyi yadına düşdü. Amma onu nə qədər axtarmışdısa da, heç yerdə tapa bilməmişdi. Eddi addımlayır və hələlik beynində boş siluet kimi ilişib qalmış nəsnəyə məzmun donu geyindirməyə çalışırdı. Zahiri əlamətlər sözlərlə ziddiyyət təşkil edirdisə də, heç cür yox olmaq istəmirdi. Dönüb arxaya baxdı. Ağ dördbucaqlı təqvim damda əzəmətlə durur, sanki sarsılmaz qətiyyətlə car çəkirdi: 2 sentyabr.

Qırmızı kərpicdən tikilmiş evin qarşısında Eddi Villersin gözünə tərəvəzlə dolu araba dəydi. Qızılı rəngdə yerkökü qalağını, təzə göy soğan dəstələrini gördü. Açıq pəncərədəki bəmbəyaz pərdə xəfifcə titrəyirdi. Avtobus usta sürücünün iradəsi ilə ehtiyatla döngəni burulurdu. Villers əminlik hissinin yenidən özünə qayıtmasına və bu dünyanı səmanın əzici boşluğundan qorumaq üçün içində qəribə, izahedilməz bir istəyin baş qaldırmasına təəccübləndi.

Beşinci avenyuya çatıb mağazaların vitrinlərini gözdən keçirməyə başladı. Ona heç nə lazım deyildi, heç nə də almaq istəmirdi; amma mallarla dolu, insan əlindən çıxmış və insanlar üçün nəzərdə tutulmuş nəsnələrin sərgiləndiyi vitrinlərdən xoşu gəlirdi. Çiçəklənən, dolğun küçədə irəliləmək hər zaman insana sevinc bəxş edir; buradakı mağazaların yalnız dörddə biri bağlıydı ki, onların da qaranlıq vitrinləri boş idi.

Səbəbini heç özü də bilmədən, nədənsə palıd ağacını xatırladı. Burada heç nə bu ağacı xatırlatmırdı, amma Taqqertlərin malikanəsində keçirdiyi yay günləri yadına düşdü. Uşaqlığının böyük hissəsi Taqqertlərin uşaqları ilə birlikdə keçmişdi. Babası və atası Taqqertlərin babasının və atasının yanında çalışdığı kimi, indi Eddi də onların korporasiyasında işləyirdi.

Hudzon çayının sahilində, malikanənin çaya çıxan təpəlik hissəsində nəhəng palıd ağacı vardı. Eddi Villers yeddi yaşında olanda bu ağacın yanına gəlməyi xoşlayardı. Ağac neçə yüzilliklərdi burada idi. Oğlana elə gəlirdi ki, həmişə də belə olacaq. Palıdın kökləri sanki təpəni caynağına almış, torpağın dərinliyinə işləmişdi. Eddiyə elə gəlirdi ki, hətta hansısa nəhəng məxluq ağacın zirvəsindən yapışmış olsa belə, onu yerindən qopara bilməz, olsa-olsa ancaq təpəliyi, onunla birlikdə isə ipə bağlanmış kürəcik kimi ağacın köklərindəki torpağı xəfifcə silkələyə bilər. O bu palıdın yanında özünü əminlikdə hiss edirdi: ağac onu təhdid etmirdi, uşaq ona böyük bir güc rəmzi kimi baxırdı.

Ancaq bir gecə palıdı ildırım vurdu. Eddi ağacı ertəsi günü gördü. Palıd ortadan ikiyə bölünmüşdü. Oğlan gövdənin içinə baxdı, qaranlıq tunelə oxşayırdı. Gövdə bomboş idi, ağacın özəyi çoxdan çürümüşdü. Koğuşunda yalnız boz rəngli narın kül qalmışdı ki, onu da xəfif meh ətrafa yayırdı. Həyat getmiş, onun yerində qalmış forma isə müstəqil şəkildə mövcudluğunu davam etdirmək iqtidarında deyildi.

Sonralar Eddi öyrəndi ki, uşaqları sarsıntılardan – ölümlə, ağrı-acı, yaxud qorxu ilə təmasa girməkdən qorumaq lazımdır. İndi bundan ehtiyat etməyə bilərdi – o, ağac gövdəsinin içindəki qara dəliyə baxanda artıq özünün dəhşət və ümidsizlik dərəcəsini üzərində sınamışdı. Baş vermiş bu qorxunc hadisəni o, inanılmaz xəyanət hesab edir, amma bu xəyanətin məhz nədən ibarət olduğunu isə heç cür anlaya bilmirdi. Məsələ heç də onda, onun inamında deyildi, bunu bilirdi, nəsə tamamilə başqa məsələ idi. Bir kəlmə də demədən, sakitcə bir qədər dayanıb baxdı, sonra evə sarı üz tutdu. Nə onda, nə də sonralar bu əhvalatı kimsəyə danışmadı.

İşıqforun işıqlarını dəyişən paslı mexanizmin qıjıltı səsi onu səkinin kənarında ayaq saxlamağa məcbur edəndə Eddi Villers eyni vaxtda narazılıqla başını tərpətdi. Onun özünə acığı tutmuşdu. Bu gün həmin palıdı xatırlaması üçün heç bir səbəb yox idi. Həmin köhnə əhvalat ondan ötrü heç bir əhəmiyyət kəsb etmirdi, olsa-olsa, azca kədərlənmişdi. Lakin içindəki ağrı, pəncərə şüşəsi ilə üzüaşağı süzülən damcılartək özündən sonra sual işarəsi şəklində izlər buraxmışdı.

O, qəmli hadisənin uşaqlıq xatirələri ilə bağlı olmasını istəmirdi. Özünün uşaqlıq çağı ilə bağlı olan hər şeyi sevə-sevə xatırlayırdı: o günlərin hər biri sakit və parlaq günəş işığı ilə zəngindi. Ona elə gəlirdi ki, bu işığın bir neçə zərrin şəfəqi hələ indiki günlərə də gəlib çatır: əslində, bu heç şəfəq də deyildi. Bəlkə də, həmin xoşbəxt günlərinin sayrışaraq bəzən onun iş yerini, mənzilini, həyatının sakit və düzənli axarını işıqlandıran uzaq ziyası idi.

Eddi həmin yay günlərinin birini xatirində canlandırdı. On yaşı vardı. Talada uşaqlıq dostu olan bir qız ona böyüyəndə nə edəcəklərindən danışmışdı. Onun söz-

ləri gözlərini günəşdən də çox qamaşdırmışdı. Qıza diqqət və heyrətlə qulaq asırdı. Qız ondan böyüyəndə nə işlə məşğul olmaq istədiyini soruşduqda isə cəld cavab vermişdi:

– Düzgün sandığım işlə, – və əlavə etmişdi: – Nəsə böyük bir iş görmək lazımdır... Yəni, ikimizi nəzərdə tuturam.

– Məhz nə iş? – qız soruşmuşdu.

– Bilmirəm, – demişdi. – Biz bunu öyrənməliyik. Amma təkcə sənin haqqında danışdığını yox, həm də öz biznesimizi, çörək pulu qazanmağın yollarını bilməliyik. Eynilə, məsələn, döyüşdə qalib gəlmək üçün, insanları od-alovdan xilas etmək, yaxud dağın zirvəsinə dırmaşmaq üçün nə etməli olduğumuzu öyrənmək kimi.

– Nəyə görə? – qız soruşmuşdu. O da cavabında:

– Ötən bazar günü keşiş deyirdi ki, biz həmişə özümüzdə ən yaxşı cəhətləri axtarıb üzə çıxarmalıyıq. Səncə, bizim ən yaxşı keyfiyyətimiz nə ola bilər? – demişdi.

– Bilmirəm.

– Gərək bunu öyrənək də.

Qız cavab verməmişdi – çünki həmin vaxt uzaqlara, dəmir yolu boyunca uzanan geniş çöllərə baxırdı.

Eddi Villers gülümsündü. O, "düzgün sandığım işlə" sözlərini 22 il əvvəl demişdi. O vaxtdan bəri bunlar ondan ötrü bir aksiom olaraq qalırdı. Bir çox məsələlər yaddaşından silinib getmişdi: çox məşğul olduğundan vaxtını boş-boş şeylərə sərf eləmirdi. Bununla belə, hesab edirdi ki, insan gərək düzgün bildiyi işlə məşğul olsun. O heç cür başa düşə bilmədi ki, necə olur insanlar başqa cür hərəkət edə bilirlər. Hərçənd, bilirdi ki, onlar məhz belə də edirlər. Hər şey ona eyni zamanda həm çox sadə, həm də əlçatmaz kimi gəlirdi: sadə – ona görə ki, hər şey düzgün olmalıdır, əlçatmaz – ona görə ki, belə alınmırdı. Bu fikirlərlə də, "Taqqert Transkontinental" korporasiyasının nəhəng binasına gəlib çatdı.

Bu, küçədəki ən hündür və əzəmətli tikili idi. Eddi Villers ona baxarkən həmişə üzündə təbəssüm yaranırdı. Qonşu binalardan fərqli olaraq, onun başdan-başa uzanan pəncərə cərgələrində bircə dənə də olsun, qırıq şüşə görməzdin. Binanın konturları sanki yuxarı şığıyan, səmaya baş vurmaq istəyən quşu xatırladırdı. Adama elə gəlirdi ki, zamanın məhvedici təsiri illərin yüksəkliyində qərar tutmuş bu binadan yan keçib. "O burada əbədi duracaq", – Eddi Villers düşünürdü.

Hər dəfə "Taqqert" korporasiyasına daxil olanda yüngüllük, özünü təhlükəsizlikdə hiss edirdi. Burada mötəbərlilik, səriştəlilik və nizam-intizam hökm sürürdü. Mərmər döşəmə par-par yanırdı. Düzbucaq şəkilli tutqun işıq lampalarından ətrafa xoş rahatlıq yayılırdı. Şüşə arakəsmələrin arxasında əyləşmiş makinaçı qızların dilləri döyəcləyən barmaqları salonda hərəkətdə olan qatar uğultusu təsəvvürü yaradırdı. Bunun əks-sədası kimi arabir binanın divarlarında aşağıdan – uzun illərdən bəri davam edən, qatarların qitə təriqi ilə yola çıxdıqları və geri qayıtdıqda "lövbər saldıqları" iri vağzal tunellərindən qalxan xəfif titrəyiş hiss olunurdu. "Okeandan

okeana qədər" – "Taqqert Transkontinental"ın şüarı belə idi. Bunu qürurla daşıyan əməkdaşlar onu İncil ehkamlarından daha ülvi, daha müqəddəs sayırdılar! "Okeandan okeana qədər və əbədi olaraq!" – Eddi Villers dəhlizlərdən keçərək "Taqqert Transkontinental"ın prezidenti Ceyms Taqqertin kabinetinə gedərkən bu sözlərin mənasını özü üçün açmağa çalışırdı.

Ceyms Taqqert masasının arxasında oturmuşdu. Üzdən ona təxminən, əlli yaş vermək olardı; görünüşündən elə təsəvvür yaranırdı ki, sanki gənclik çağını adlayıb birbaşa ahıllıq dövrünə qədəm qoyub. Ağzı xırda idi, nazik, tərli saçları dazlaşmaqda olan geniş alnına düşmüşdü. Oturuşunda yorğunluq, süstlük gözə çarpırdı ki, bu da onun uca qaməti ilə ziddiyyət təşkil edirdi. Bu cüssəli bədən öz sahibini zadəgan əminliyi, kübarca davranış nümunəsi etmək əvəzinə, nədənsə büzüşərək onu aciz kəndli vəziyyətinə salmışdı. Yumşaq dərili, rəngi qaçmış üzü, dumanlı gözləri vardı. Tərəddüdlü baxışları bir əşyadan digərinə yönəlirdi. Çox yorğun və xəstəhal kimi gözə dəyirdi. Otuz doqquz yaşındaydı.

O, qapının açıldığını eşidib əsəbi halda səs gələn tərəfə baxdı.

– Mane olma, mane olma, məni işdən ayırma, – Ceyms Taqqert dedi.

Eddi Villers düz masaya doğru üz tutdu.

– Çox vacibdir, Cim, – Eddi səsini ucaltmadan dedi.

– Hə, yaxşı-yaxşı, de görüm, nə məsələdir?

Eddi Villers kabinetin divarından asılmış xəritəyə baxdı. Şüşə altından xəritənin rəngləri solğun kimi görünürdü. Maraqlıdır, görəsən bu xəritənin altında "Taqqert" şirkətinin neçə prezidenti, hər biri də neçə il oturub? "Taqqert Transkontinental"ın dəmiryolları – ölkənin rəngsiz xəritəsini Nyu-Yorkdan San-Fransiskoyadək hörümçək toru kimi bürümüş qırmızı xətlər şəbəkəsi – qan damarları sistemini xatırladırdı. Nə vaxtsa şah damara vurulmuş qan tədricən şaxələnərək təsadüfi yaranmış kiçik çaylar vasitəsilə bütün ölkəyə yayılmışdı.

"Taqqert Transkontinental"ın qırmızı cığırlarından biri – Rio-Norte xətti Vayominqdəki Şayenndən Texasda yerləşən El-Pasoya qədər uzanırdı. Yaxınlarda xəttə yeni qol da əlavə edilmişdi və qırmızı zolaq El-Pasodan bir qədər də cənuba doğru uzanmışdı. Amma Eddi Villersin gözü bu nöqtəyə sataşan kimi dərhal üzünü çevirdi.

Ceyms Taqqertə baxaraq dedi:

– Rio-Norte xəttində işlər yaxşı deyil. Yenə qəza baş verib.

Taqqert gözlərini yerə, masanın altına dikdi.

– Dəmiryolunda hər gün qəza baş verir. Belə boş şeydən ötrü məni narahat etməyinə dəyərdimi?

– Nə dediyimi yaxşı bilirsən, Cim. Rio-Norte göz görə-görə dağılıb gedir. Qol pis gündədir. Bütün xətt köhnəlib.

– Biz yeni yollar çəkərik.

Eddi Villers cavabı eşitmirmiş kimi davam etdi:

– Bu xəttin sonu yoxdur, ora qatar buraxmaq mənasızdır. İnsanlar ora getməkdən imtina edir.